Yeni Azərbaycan.- 2025.- 5 dekabr, №222.- S.8.

# Könül işi

## Heç bir mənafe güdmədən...

Ümid yeri olmaq, savab qazanmaq, xalqına, vətəninə xidmət etmək könüllülük prinsipidir. Biz dünən də belə idik, bu gün də beləyik, şübhəsiz ki, sabah da bu keyfiyyətimizə sadiq qalacağıq. Könüllülük həm də kollektiv əmək deməkdir, bərabər işləmək istedadıdır.

Dünya tarixində müasir anlamda könüllü fəaliyyət anlayışına ilk dəfə XVII əsrdə Fransa ordusunda rast gəlinir. Bu anlayış könüllü hərbçi olmaq istəyən fransızların qeydə alınmasından sonra meydana çıxıb. 1881-ci ildə isə ABŞ-də vətəndaş müharibəsi zamanı qadınların könüllü olaraq tibb bacısı kimi fəaliyyət göstərməsi minlərlə könüllünü ətrafında birləşdirən Amerika Qırmızı Xaç Təşkilatının yaranmasına səbəb oldu.

## Könüllülük psixologiyası...

Ölkəmizdə daha çox könüllülük əsasında çalışan insanlara QHT-lərdə rast gəlmək mümkündür. Çünki bu cür təşkilatların iş prinsipi könüllü olaraq, hər hansı maddi mənafe güdmədən vətəndaş cəmiyyətinin inkişafına dəstək verməkdir. Zamanını, əməyini və bacarığını hər hansı bir layihədə sərf edən insanlar daha çox yardım etmək və başqaları üçün faydalı olmaq üçün könüllü çalışdıqlarını qeyd edirlər. Ancaq bununla yanaşı, bir sıra başqa istəklər də var ki, insanları könüllü olmağa sövq edir. Könüllülük psixologiyasını başa düşmək könüllülərin çalışdığı qurumlarda iş prosesinin daha da effektivliyinə təsir göstərə bilər. Könüllülərin əməyindən istifadə edən hər bir qurumun könüllülük psixologiyasını yaxşı bilməyi vacibdir.



## Uğur formulumuz...

Tariximizin ən böyük, təsvirolunmaz təmənnasız könüllülük aktı, əlbəttə ki, Vətənin müdafiəsinə könüllü yollanmağımızdır. Həm də kişi-qadın fərq etmədən... 21-ci əsr ölkəmizin könüllülük həyatında dərin izlər buraxmaqdadır. Çoxsaylı dövlət, özəl, ictimai təşkilat öz fəaliyyətilə könüllülük prinsiplərini qoruduğunu göstərir və hətta beynəlxalq miqyasda xeyriyyəçilik ənənələrimizi nümayiş etdirirlər.

Bu gün ölkəmizdə gənclərin fəaliyyətində könüllülük xüsusi yer tutur və bu sahəyə maraq olduqca böyükdür. Ancaq 2013-cü ilə kimi könüllülük ölkədə kiçik komandalarla fəaliyyət göstərirdi. Həmin il Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) yanında fəaliyyət göstərən "ASAN Könüllüləri Təşkilatı" yaradıldı. Bu hərəkat minlərlə gəncin ilkin əmək vərdişləri qazanmasına, öz peşəsinin incəliklərini öyrənməsinə, yeni bilik və bacarıqlar əldə etməsinə geniş imkan verdi.

## Könüllülüyün məkanı, yaşı, sərhədi yoxdur...

Dövlət başçısının 2020-ci ili ölkəmizdə "Könüllülər ili" elan etməsi könüllülük hərəkatının inkişafına daha da təkan verdi. Bununla da könüllü şəxslərin əmək bazarında öz yerlərini tutmalarına münbit şərait yarandı. Eyni zamanda, könüllülük gənclərdə vətənpərvərlik və dövlətçiliyimizə sədaqət kimi keyfiyyətləri formalaşdırdı.

Könüllülüyün zamanı, məkanı, yaşı, sərhədləri yoxdur. Bunu edən şəxs heç bir proqrama qoşulmadan, heç bir ictimai birliyin və ya təşkilatın üzvü olmadan da yerinə yetirə bilər. Çünki könüllülük könül işidir...

***Yeganə BAYRAMOVA***